


AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Oktyabr 2019

iqtisadiislahat.org
info@ereforms.org

**AZEXPORT.AZ**
**Made in Azerbaijan**

# “ƏSAS VƏZİFƏMİZ İQTİSADİ İNKİŞAFI ŞƏRTLƏNDİRƏN İSLAHATLARI DƏRİNLƏŞDİRMƏKDİR”

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 15 oktyabr tarixində keçirilən
iqtisadi müşavirədəki nitqindən



“Əlbəttə ki, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər.

Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlərim deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir”.

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ____ səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ____ səh. 12

2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 969 milyon manatlıq əməliyyat aparmışlar ____ səh. 16

Azexport.az portalına 2019-cu ilin yanvar-sentyabr aylarında 436,4 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur ____ səh. 18

Cari ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən 118,5 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir ____ səh. 23

Rəqəmsal Ticarət Qovşağının üçüncü beynəlxalq forumunda ilk dəfə Dövlət və Özəl Tərəfdaşlığı müqaviləsi Asan İmza vasitəsi ilə onlayn imzalanmışdır ____ səh. 26

Azərbaycan məhsulları "Anuga 2019" beynəlxalq ərzaq sərgisində nümayiş olunmuşdur ____ səh. 27

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-SENTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **1 milyard 413 milyon** ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **206 milyon** ABŞ dolları və ya **17%** artmışdır

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən 2019-cu ilin yanvar-sentyabr ayları ərzində ölkəmizin ixracı **14,9 milyard** ABŞ dolları təşkil etmiş və ötən ilin müvafiq dövrünə nisbətən **584,2 milyon** ABŞ dolları və ya **4,1 faiz** artmışdır. Bu müddətdə qeyri-neft sektoru üzrə **1 milyard 413 milyon** ABŞ dolları dəyərində ixrac reallaşdırılmışdır. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 9 ayında qeyri-neft sektoru üzrə ixrac **206 milyon** ABŞ dolları və ya **17 faiz** artmışdır. Cari ilin yanvar-sentyabr ayları ərzində Rusiyaya **465,6 milyon**, Türkiyəyə **304 milyon**, İsveçrəyə **125,4 milyon**, Gürcüstana **123,2 milyon** və İtaliyaya **34,4 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin 9 ayında Rusiyaya qeyri-neft ixracı **16 faiz**, Türkiyəyə **10 faiz**, İsveçrəyə **19 faiz**, Gürcüstana **26 faiz** və İtaliyaya **2,2 dəfə** artmışdır. Eyni zamanda qeyri-neft sektoru üzrə ixracın dəyərində Rusiyaya (33 faiz), Türkiyəyə (21,5 faiz), İsveçrəyə (8,9 faiz), Gürcüstana (8,7 faiz) və İtaliyaya (2,4 faiz) göndərilmiş malların payı üstünlük təşkil etmişdir.

2019-cu ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında isə pomidor (142,3 milyon ABŞ dolları)

liderliyini qorumuşdur. Bu siyahıda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda – 120,8 milyon ABŞ dolları) ikinci və qabığı təmizlənmiş meşə fındığı (87,9 milyon ABŞ dolları) üçüncü yerdə qərarlaşmışdır.

Həmçinin cari ilin 9 ayında pambıq mahlıcı, elektrik enerjisi, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, ilkin formalı polipropilen, metanol (metil spirti), emal olunmamış aşqarlanmamış alüminium da qeyri-neft ixracında mühüm paya sahib olmuşdur.

Ümumiyyətlə, 2019-cu ilin 9 ayı ərzində meyvə-tərəvəz ixracı **389,8 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **152 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **97,2 milyon**, pambıq lifi ixracı **86,7 milyon**, kimya sənayesi məhsullarının ixracı **76,6 milyon**, elektrik enerjisinin ixracı **62,9 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **46,7 milyon**, şəkər ixracı **23,2 milyon**, pambıq ipliyi ixracı **22,5 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **20,3 milyon** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında alkoqollu və alkoqolsuz içkilərin ixracı **85 faiz**, kimya sənayesi məhsullarının ixracı **35 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **59 faiz**, pambıq lifinin ixracı **38 faiz**, pambıq ipliyinin ixracı **32 faiz**, meyvə-tərəvəzin ixracı **14 faiz**, şəkər ixracı **12 faiz**, elektrik enerjisi ixracı **6 faiz** artmışdır.

2019-cu ilin sentyabr ayında isə qeyri-neft sektoru üzrə ixrac **136 milyon** ABŞ dolları təşkil etmişdir. 2018-ci ilin sentyabr ayı ilə müqayisədə 2019-cu ilin sentyabr ayında qeyri-neft sektoru üzrə ixrac **22 milyon** ABŞ dolları və ya **19 faiz** artmışdır. Cari ilin sentyabr ayında qeyri neft-qaz məhsulları ən çox mal Rusiyaya (38,5 milyon ABŞ dolları), Türkiyəyə (25,4 milyon ABŞ dolları), İsveçrəyə (13,9 milyon ABŞ dolları), Gürcüstana (12,5 milyon ABŞ dolları) və Çinə (5,4 milyon ABŞ dolları) ixrac edilmişdir.

2019-cu ilin sentyabr ayında qeyri-neft sektoru üzrə ixracda qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda - 13,1 milyon ABŞ dolları) birinci, qabığı təmizlənmiş meşə fındığı (11,7 milyon ABŞ dolları) ikinci, emal olunmamış aşqarlanmamış alüminium (8,1 milyon ABŞ dolları) üçüncü olmuşdur.

Bunlarla yanaşı cari ilin sentyabr ayında ilkin formalı polipropilen, xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti), daş kömür qatranının yüksək temperaturlu qovulmanın digər yağları və məhsulları, sair təzə meyvələr, elektrik enerjisi qeyri-neft sektoru üzrə ixracda önə çıxmışdır.

2019-cu ilin 9 ayında ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

## 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **SENTYABR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
## (2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**
**(Dəyəri milyon ABŞ dolları ilə)**






# 2019-CU İLDƏ **RÜBLƏR ÜZRƏ QEYRİ-NEFT İXRACI**
**(Ötən ilin eyni rübü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI OKTYABR

| | 2019 | 2018 |
|---|---|---|
| Tomat | 142,3 | 144,8 |
| Qızıl | 120,8 | 93 |
| Fındıq ləpəsi | 87,9 | 52,4 |
| Mahlıc | 85,5 | 62,1 |
| Elektrik enerjisi | 62,9 | 59,6 |
| İlkin formalı polietilen | 57 | 67,6 |
| İlkin formalı polipropilen | 53,6 | 0,6 |
| Metanol (metil spirti) | 53,5 | 23 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 48 | 45,3 |
| Digər | 701,5 | 659 |













2019-CU İLİN **SENTYABR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI OKTYABR





















| Mal | 2019 | 2018 |
|---|---|---|
| Qızıl | 13,1 | 11,9 |
| Qabığı təmizlənmiş meşə fındığı | 11,7 | 12 |
| Emal olunmamış aşqarlanmamış alüminium | 8,1 | 3,7 |
| İlkin formalı polipropilen | 6,2 | 0,1 |
| İlkin formalı polietilen | 6,2 | 4,6 |
| Metanol (metil spirti) | 5,4 | 7,1 |
| Digər yağlar və məhsullar | 5,3 | 4,3 |
| Sair təzə meyvələr | 4,9 | 2,7 |
| Elektrik enerjisi | 4,5 | 0,05 |
| Digər | 70,6 | 67,3 |

2019 İXRAC İCMALI OKTYABR

# 2018-Cİ İLİN Və 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

## 2018

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Qızıl | 17,2 |
| Fevral | Elektrik enerjisi | 17,7 |
| Mart | Elektrik enerjisi | 13,6 |
| Aprel | Pomidor | 18,5 |
| May | Pomidor | 54,3 |
| İyun | Pomidor | 43,2 |
| İyul | Pambıq mahlıcı | 16,4 |
| Avqust | Qızıl | 12,6 |
| Sentyabr | Fındıq ləpəsi | 12 |

## 2019

| Ay | Mal | Dəyər |
| --- | --- | --- |
| Yanvar | Xurma | 12,6 |
| Fevral | Elektrik enerjisi | 19,4 |
| Mart | Fındıq ləpəsi | 13,7 |
| Aprel | Pomidor | 24,2 |
| May | Pomidor | 54,6 |
| İyun | Pomidor | 33,8 |
| İyul | Qızıl | 14,7 |
| Avqust | Qızıl | 22,7 |
| Sentyabr | Qızıl | 13,1 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR-SENTYABR AYLARINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

“İxrac İcmalı” tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar-sentyabr ayları üzrə həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, “Socar Polymer" MMC, "MKT İstehsalat Kommersiya" MMC, "Nine Climate" MMC, "Global Export Fruits" MMC, “Sun Food" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi " MMC, "Baku Steel Company", "Caspian enerji-2020" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət Ltd" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azəralüminium" MMC, "Azərenerji" ATSC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, “CTS-Agro" MMC, "Azərikimya" İB, "Azərtütün Aqrar Sənaye Kompleksi" MMC, "Bakı Neft Maşinqayırma Zavodu" TASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



## 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI OKTYABR




* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

# 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI OKTYABR



# 2019-CU İLİN YANVAR-SENTYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 30,2 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın **24 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **88 faizini** təşkil etmişdir.

2019-cu ilin sentyab ayında isə "Azərkosmos" ASC dünyanın **20 ölkəsinə 2,2 milyon** ABŞ dolları dəyərində xidmət ixrac etmişdir.

2019-cu ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə**

| Ölkə | Məbləğ |
|---|---|
| ABŞ | 9 milyon $ |
| Fransa | 7,8 milyon $ |
| Birləşmiş Krallıq | 5,8 milyon $ |
| Malayziya | 4,2 milyon $ |
| BƏƏ | 1 milyon $ |





## 2019-cu ilin **YANVAR-SENTYABR AYLARINDA** Azərbaycana gələn xaricilər **BANK KARTLARI VASİTƏSİ İLƏ** **969 milyon** manatlıq əməliyyat aparmışlar

## **ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə **CARİ İLİN** birinci yarısında ölkəmizə **9,5 faiz** çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir

2019-cu ilin yanvar-sentyabr aylarında Azərbaycana dünyanın 191 ölkəsindən 2418,3 min və ya 2018-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə 9,5 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 30 faizi Rusiya Federasiyası, 22 faizi Gürcüstan, 9,7 faizi Türkiyə, 8,2 faizi İran, 3,9 faizi Səudiyyə Ərəbistanının vətəndaşları olmuşdur.

Ölkəmizə yanvar-sentyabr aylarında gələnlərin sayında daha çox artım Türkmənistan (96,0 faiz), Hindistan (70,1 faiz), Misir (66,3 faiz), Çin (63,7 faiz) və Səudiyyə Ərəbistanı (42,0 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

2019-cu ilin yanvar-sentyabr aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 24,0 faiz artaraq 110,3 min nəfər, MDB ölkələrindən gələnlərin sayı isə 8,3 faiz artaraq 880,9 min nəfər olmuşdur.

Cari ilin sentyabr ayında ölkəmizə gələn xarici vətəndaşların sayı **20,8 faiz** artmış və onların bank kartları vasitəsi ilə apardıqları əməliyyatları **106,2 milyon** manat təşkil etmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri **969 milyon** manat təşkil etmişdir.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLARIN DƏYƏRİ **(milyon manatla)**

2019 İXRAC İCMALI OKTYABR

| 2017 | 2018 | 2019 |
|---|---|---|
| Yanvar - **86,8** | Yanvar - **99,8** | Yanvar - **88,3** |
| Fevral - **72,5** | Fevral - **91,1** | Fevral - **85,3** |
| Mart - **91,1** | Mart - **105,8** | Mart - **98** |
| Aprel - **80,6** | Aprel -**109,7** | Aprel - **103,2** |
| May - **92,6** | May -**107,3** | May -**100,9** |
| İyun - **83,8** | İyun - **106,7** | İyun - **115,1** |
| İyul - **95,7** | İyul - **126,3** | İyul - **134,6** |
| Avqust - **100,8** | Avqust - **141** | Avqust - **137,4** |
| Sentyabr - **93,2** | Sentyabr - **114,6** | Sentyabr - **106,2** |
| **Cəmi - 797,1** | **Cəmi - 1002,3** | **Cəmi - 969** |

# 3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR-SENTYABR AYLARINDA 436,4 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

## ÖTƏN İLİN MÜVAFİQ DÖVRÜ İLƏ MÜQAYİSƏDƏ portala daxil olan **ixrac sifarişləri dəyər** baxımından **6,4 faiz ARTMIŞDIR**

2019-cu ilin yanvar-sentyabr aylarında Azexport.az portalına **436,4 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar-sentyabr aylarında ixrac sifarişlərinin dəyəri **6,4 faiz** artmışdır. 2019-cu ilin sentyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **37,1 milyon** ABŞ dolları təşkil etmişdir. 2019-cu ilin yanvar-sentyabr aylarında portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində Rusiya(11,2%), Türkiyə (5,8%), Hindistan (5,7%), ABŞ (5,6%) və İngiltərə (5,1%) qərarlaşmışdır.

Cari ilin sentyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi tütün, toyuq əti və yumurtası, fındıq ləpəsi, pambıq yağı, şərab, nar, soğan, kosmetik vasitə, tibbi tənzif, mebel dəsti, boya, qənnadı məhsulu, mineral su, sarımsaq, meyvə konsentratı, təzə meyvə, mürəbə, tikinti materialı, süd məhsulları, zəli və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 30 sentyabr tarixinə kimi (33 ay ərzində) Azexport.az portalına dünyanın **136 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **1 milyard 425,5 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA
# DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI OKTYABR




Yanvar - **91,7**
Fevral - **53,9**
Mart - **32,8**
Aprel - **50,9**
May - **32,5**
İyun - **41,3**
İyul - **43,5**
Avqust - **52,7**
Sentyabr - **37,1**

2017-ci il ərzində
**CƏMİ - 475**

2018-ci il üzrə
**CƏMİ - 514,1**

2019-cu il
**CƏMİ - 436,4**



Son **33 ay** ərzindəki sifarişlərin cəmi - **1 425,5**

2019 İXRAC İCMALI OKTYABR

# 2019-CU İLİN **SENTYABR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

Tütün



Toyuq əti və yumurtası



Fındıq ləpəsi



Pambıq yağı



Şərab



Nar



Soğan



Kosmetik vasitə



Tibbi tənzif



Mebel dəsti



Boya



Qənnadı məhsulu



Meyvə tamlı süd



Mineral su



Sarımsaq



# 2019-CU İLİN **YANVAR-SENTYABR AYLARINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ





# “**KREATİV AZƏRBAYCAN**: YARADICI MƏHSULLARIN AZEXPORT.AZ PORTALI VASİTƏSİ İLƏ İXRAC İMKANLARI” MÖVZUSUNDA **TƏDBİR** TƏŞKİL OLUNMUŞDUR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Mədəniyyət Nazirliyi ilə birlikdə “Kreativ Azərbaycan: Yaradıcı məhsulların Azexport.az portalı vasitəsi ilə ixrac imkanları” mövzusunda tədbir keçirmişdir. Tədbirin keçirilməsində məqsəd Azexport.az portalının Azərbaycanın yaradıcı məhsullarının xarici bazarlara beynəlxalq elektron ticarət platformaları vasitəsi ilə ixrac imkanlarının genişləndirilməsinin növbəti mərhələsinə start verməsidir. Bildiyimiz kimi Yaradıcı və Mədəniyyət Sənayeləri (YMS) dünya iqtisadiyyatında dinamik inkişaf edən sektorlardan biridir. YMS-lər iqtisadiyyat, mədəniyyət, yaradıcı texnologiya sahələrini birləşdirən sənaye növüdür. Azərbaycanda mədəni və kreativ məhsullar olan rəssamlıq, sənətkarlıq, musiqi, film, nəşriyyat və digər növ məhsullarının da dünya bazarlarına çıxışına Azexport.az portal da töhfə verə bilər. Tədbir zamanı bildirilmişdir ki, inikişaf etmiş ölkələrdə kreativ məhsulların iqtisadiyyata verdiyi töhfə ÜDM-in 4-6 fazini təşkil edir.  Azərbaycanın bu sahədə mövcud potensialını nəzərə alsaq perspektivdə sözügedən sektor ölkəyə ən azı 1-1,5 milyard ABŞ dolları əlavə gəlir gətirə bilər. Bu məqsədlə kreativ məhsulların xarici bazarlarda təşviqi məqsədilə Azexport.az portalı sınaqdan keçmiş modelini və mövcud imkanlarını təklif edir.

Qeyd edək ki, Azexport.az portalı cari il ərzində Amazon platformasında elektron kitabların satışı istiqamətində uğura nail olmuşdur. Belə ki, ümumilikdə Azexport.az və Amazon.com portallarında Akademik Urxan Ələkbərovun “Fundamentals of İnclusive Development Management” adlı elektron kitabı 3 ay ərzində 300-dən artıq nüsxədə satılmışdır.

Bildirilmişdir ki, növbəti mərhələdə dizayn həlləri, əl işləri, milli suvenirlər, əsərlər, şeirlər, rəsmlər, kreativ video oyunlar, müsiqilər, bəstəkarlıq və potensial ixrac imkanı olan digər yaradıçılıq məhsullarının Etsy, Apple Music, Itunes, Google Play, Kickstarter, Sothebys və Amazon Kindle kimi platformalara yerləşdirilməsi nəzərdə tutulmuşdur.






4

# CARİ İLDƏ "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 118,5 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ QEYRİ-NEFT İXRACI HƏYATA KEÇİRİLMİŞDİR

2019-cu ilin oktyabr ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin xidmətlərindən "AzerGold" QSC, Teymur Əhmədov adına "AZNAR" QSC, "Baku Steel Company" MMC, "Sadoil" MMC, "Atena Aqro" MMC, "Həkəri 2010" MMC "Agro Export Azerbaijan" MMC, "Azərtütün" MMC, "Gilan Tekstil Park" MMC, "Meyvə" MMC kimi şirkətlərlə yanaşı, fiziki şəxslər də istifadə etmişdirlər. Nəticədə cari ilin avqust ayı ərzində Mərkəz vasitəsi ilə verilən ixrac sənədlərinə əsasən **18,6 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Ümumilikdə isə 2019-cu ilin yanvar-oktyabr aylarında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən **118,5 milyon** ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir.

Cari ilin oktyabr ayı ərzində ixracatçılara əsasən qiymətli metallar, sarımsaq, nar, tütün, meyvə şirələri, pendir, polad armatur yayması, biyan kökü, tibbi zəli, ayaqqabı altlıqları, pambıq tullantısı, kəpək, mebel, polad boru və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Rusiya, Ukrayna, Gürcüstan, Belarus, Türkiyə, Özbəkistan, ABŞ, İsveçrə, İran daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri 150 milyon ABŞ dolları olmuşdur.



# 2019-CU İLİN YANVAR - OKTYABR AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)



# 2019-CU İLİN **OKTYABR AYINDA "BİR PƏNCƏRƏ"** İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ **SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ**



# RƏQƏMSAL TİCARƏT QOVŞAĞININ **ÜÇÜNCÜ BEYNƏLXALQ FORUMUNDA** İLK DƏFƏ DÖVLƏT VƏ ÖZƏL TƏRƏFDAŞLIĞI MÜQAVİLƏSİ ASAN İMZA VASİTƏSİ İLƏ **ONLAYN İMZALANMIŞDIR**

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə "Rəqəmsal Ticarət Forumu: İpək Yolunun Rəqəmsallaşması" mövzusunda üçüncü beynəlxalq konfrans keçirilmişdir. Tədbirdə əsasən İpək yolu boyunca rəqəmsal layihələr, maliyyə və bank texnologiyaları, eləcə də e-hökumət həlləri müzakirə olunmuşdur. Beynəlxalq konfransda İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Maliyyə Bazarlarına Nəzarət Palatasının İdarə Heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev və digər şəxslər mövzu ilə bağlı çıxış etmişdirlər.

Həmçinin Rəqəmsal Ticarət Qovşağının üçüncü beynəlxalq forumunda ilk dəfə Dövlət və Özəl Tərəfdaşlığı müqaviləsi Asan İmza vasitəsi ilə onlayn imzalanmışdır. Müqaviləni fəaliyyət sahəsi üzrə kifayət qədər uğur qazanmış tərəflər – İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, "PAŞA Bank", "B.EST Solutions" və "AzerTelecom" şirkətləri imzalayıblar. Onlayn müqavilənin imzalanması ilə tərəflər vahid bir sistem kimi, Azərbaycanın Rəqəmsal Qovşaq kimi regionda və dünyada mövqeyinin gücləndirilməsi üçün birgə fəaliyyətə başlayacaqlar.

İmzalanmanın ardınca konfransda iştirak üçün Estoniyadan Azərbaycana gələn ilk e-rezidentlik proqramının qurucusu, keçmiş icraçı direktoru Kaspar Koryus "Estoniyanın eRezidentliyi - Estoniyadan e-Rezidentliyinin təcrübə və tövsiyyələri" mövzusunda təqdimatla çıxış etmişdir. O, Estoniya təcrübəsi, inkişaf xətti və gələcək planları barədə iştirakçılara ətraflı məlumat verib.

Konfrans daha sonra "Sosial, İqtisadi və Maliyyə sektorlarında rəqəmsal yeniliklər" başlıqlı panel müzakirəsi ilə davam etmişdir.

Qeyd edək ki, Azərbaycanda Rəqəmsal Ticarət Qovşağına aid üçüncü beynəlxalq konfransda ABŞ, İsrail, Rusiya, Böyük Britaniya, Estoniya, Türkiyə, İspaniya və digər ölkələrdən 200-ə yaxın nümayəndə iştirak etmişdir.






5

# AZƏRBAYCAN MƏHSULLARI "ANUGA 2019" BEYNƏLXALQ ƏRZAQ SƏRGİSİNDƏ NÜMAYİŞ OLUNMUŞDUR

Cari ilin 5-9 oktyabr tarixlərində Almaniyanın Köln şəhərində təşkil olunan "Anuga 2019" beynəlxalq ərzaq sərgisində Azərbaycan məhsulları nümayiş olunmuşdur. Sərgidə İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə qida sənayesi sahəsində fəaliyyət göstərən 18 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirmişdir. Sərgi çərçivəsində Azərbaycanlı sahibkarlar xarici həmkarları ilə görüşlər keçirib, ixraca dair razılıqlar əldə etmiş, müqavilələr bağlamışdırlar.

Fındıq istehsalı ilə məşğul olan Azərbaycanın "Azərstar" şirkəti Litvadan olan şirkətlə 22 ton fındıq ləpəsinin ixracına dair müqavilə imzalamış, İtaliyada fəaliyyət göstərən distribüterlə 22 ton, Bolqarıstandan olan şirkətlə isə 10 ton fındıq məhsulun ixracına dair ilkin razılıq əldə etmişdir.

Bundan başqa, "Ləzzət Biskvit və Şokolad Fabriki" şirkəti 20 ton qənnadı məmulatının, "Baku Konserv" və "Babək Sirab" şirkətləri isə öz məhsullarının ixracına dair ilkin razılıq əldə etmişdirlər.



**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN
"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az

/iqtisadiislahat

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

